# Əlləz VƏLİYEV - 70



Hörmətli Əlləz müəllim!

Sizi - istedadlı yazıçı-publisisti 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Sizin əmək fəaliyyətiniz meşə təsərrüfatı ilə bağlıdır. İşlədiyiniz müddətdə doğma torpağa, təbiətə çox bağlanmış, yaradıcılığınızda bu mövzuya geniş yer vermisiniz. "Borçalıda qədim Ormeşən eli" kitabınız XIX əsrdən başlayaraq müasir dövrümüzə qədər olan böyük bir dövrü əhatə edir. Burada Ormeşən kəndinin ağsaqqalları, ağbirçəkləri, ziyalıları, İkinci Dünya müharibəsinin iştirakçıları, zabitləri, əzəli torpağımız olan Qarabağ uğrunda döyüşən oğullarımız haqqında geniş məlumatlar var. Kitabda bu kəndin füsunkar gözəllikləri, yamyaşıl sıx meşələri, bulaqları, dərələri, dağları bədii təsvirini tapır. "Xalqa-elə məhəbbətin bəhrəsi" kitabınız bir növ tərcümeyi-haldır. Meşəçilər haqqında yazmış olduğunuz "Təbiətdə izi qalan meşəçilər" kitabı da maraqla qarşılanmışdır. Bu kitab AMEA Coğrafiya İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunub. Kitabda Azərbaycan Respublikasının tanınmış təbiətşünasları, meşə təsərrüfatı işinin görkəmli təşkilatçıları, meşəçi alimlər, meşələrin qorunmasında xüsusi əməyi olan insanlar, meşə gözətçiləri, onların sayəsində salınmış və qorunmuş gözoxşayan meşəliklər haqqında məlumatlar yer almışdır. "Meşə təsərrüfatının görkəmli təşkilatçısı və dövlət xadimi Mehdi Mustafayev-100" kitabı görkəmli dövlət xadimi, Sosialist Əməyi Qəhrəmanı Mehdi Mustafayevin 100 illik yubileyi münasibətilə çapdan çıxıb. Kitabda Mehdi Mustafayevin respublika meşəçilik təsərrüfatının inkişafındakı xidmətləri, cəmiyyətdə qazandığı nüfuz, hörmət və ehtiram, nəcib insani keyfiyyətləri haqqında məlumat verilmişdir.

Hörmətli Əlləz müəllim!

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 7 may.- S. 31.**